# HACIQABUL

№ 14
(673)

16 sentyabr
2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti




## Təhsil, vətənpərvərlik, milli dəyərlər, güclü Azərbaycan - budur bizim əsas prinsiplərimiz

***Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də neft gəlirləri Azərbaycanda həm də təhsilin, elmin inkişafına yönəlib.***

Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır.

Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var. Çünki dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsidir. Bu baxımdan təhsil sahəsinə qoyulan investisiyalar mühüm əhəmiyyət kəsb edir.

Hər bir ölkənin inkişafını ölkənin intellektual potensialı müəyyən edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə, onların uğurlarına baxmaq kifayətdir ki, biz bunu deyə biləк. O ölkələrdə ki, innovasiyalar, texnologiyalar inkişaf edir, o ölkələr dünya miqyasında da aparıcı mövqelərə malikdir.

Gələcək inkişafı təbii resurslar yox, bilik müəyyən edəcək. Biz görürük ki, iqtisadi sahədə, sənaye sahəsində, hərbi sahədə texnologiyalar nə qədər inkişaf edir. O texnologiyaların sahibləri bu gün dünyada da söz sahibləridir. Biz Azərbaycanda elmə, təhsilə, texnoloji inkişafa çox böyük əhəmiyyət veririk ki, gənclərimiz, cəmiyyətimiz bilikli olsun və Azərbaycan da texnoloji inkişaf baxımından geridə qalmasın. Maddi-texniki baza möhkəmlənir, təhsilin keyfiyyəti yaxşılaşır. Bu sahəyə investisiyalar qoyulur, insan kapitalına investisiyalar qoyulur. Beləliklə, əminəm ki, Azərbaycanda cəmiyyətin intellektual potensialı həmişə yüksək həddə olacaqdır. Bu, həm inkişaf üçün, həm bu gün ölkəmizdə yaşanan sabitlik, əmin-amanlıq üçün lazımdır. Çünki savadlılıq olmayan yerlərdə kənardan mənfi təsirlər də özünü büruzə verir. Biz ölkəmizin təhlükəsizliyini qoruyuruq - həm sərhədlərimizi, təhlükəsizliyimizi qoruyuruq, eyni zamanda, özümüzü yad təsirdən də qorumalıyıq. Çünki bu gün dünyada ideoloji sahədə mübarizə gedir, müharibə gedir. Bu, sonrakı qanlı müharibələrin elə bil ki, əsasını təşkil edir. İnsanların beyinləri, xüsusilə gənc nəslin beyinləri zəhərlənir. Onlar müxtəlif xoşagəlməz addımlara təhrik olunur, sonra da onlardan istifadə edilir ki, bəzi xarici dairələrin çirkin niyyətləri bu və ya digər ölkədə özünü göstərsin. Ona görə, biz özümüzü, o cümlədən bu mənfi və təhlükəli təsirdən də qorumalıyıq. Eyni zamanda, bununla bərabər olaraq, həm müəllimlər, həm valideynlər uşaqları vətənpərvərlik ruhunda tərbiyə etməlidirlər ki, onlar Vətənə bağlı olsunlar, milli ruhda böyüsünlər, milli dəyərlərimizi hər şeydən üstün tutsunlar. Çünki əgər milli dəyərlərimizdə hər hansı bir sarsıntı yaşanarsa, bu, cəmiyyətimizin əsaslarını, sütunlarını sarsıdar. Ona görə, mən həmişə deyirəm ki, milli dəyərlərimiz, mənəvi dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Biz onları qorumalıyıq, milli ruhumuzu saxlamalıyıq. Çünki bu, bizim gələcəyimiz üçün əsasdır.

# Yüksək təhsil uğurun açarıdır

***Sentyabr ayının 7-də Hacıqabul rayon təhsil işçilərinin konfransı keçirildi.Konfransda ötən tədris ilinin yekunları və qarşıda duran vəzifələr müzakirə edildi***

***Konfrans başlamazdan əvvəl bir qrup konfrans iştirakçısı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə tər gül dəstələri düzdülər. Sonra Konfrans şəhər klubunda davam etdirildi.***

Konfransın işində Azərbaycan Təhsil İnstitunun şöbə müdiri Piralı Əliyev, 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəis müavini Elmar Əhmədov, rayon İcra Hakimiyyəti Başçısı Aparatının məsul işçisi Elvin Şıxəliyev və rayonun ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri iştirak edirdi.

Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə öz işinə başladı. Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov konfransı açaraq ötən tədris ilində görülmüş işlərdən, əldə olunan nailiyyətlərdən, nöqsanlardan və qarşıda duran vəzifələrdən danışdı. Məruzəçi qeyd etdi ki, 2016-2017-ci dərs ili hər birimiz üçün tarixə çevrilmişdir.Yola saldığımız 2016-2017-ci dərs ili ölkəminizin təhsil tarixində bir sıra əlamətdar hadisələrlə yaddaqalan olmuşdur.Belə ki, ötən dərs ilində bütün ölkə üzrə müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılması başa çatdırılmış və ölkə Prezidentinin Sərəncamı ilə diaqnostik qiymətləndirmədən uğurla keçən müəllimlərin əməkhaqqının artırılması tam həyata keçirilmişdir.

Yola saldığımız 2016/2017-ci dərs ilində rayon Təhsil Şöbəsi üzrə 33



ümumtəhsil məktəbi, 4 məktəbdənkənar müəssisə fəaliyyət göstərmişdir. Rayonun ümumtəhsil məktəblərində 10346 nəfər şagird təhsil almış və onların təlim-tərbiyəsi ilə 848 nəfər təhsil işçisi məşğul olmuşdur. Müəllimlərdən 610 nəfəri ali, 238 nəfəri pedaqoji orta təhsillidir. Eləcə də rayon müəllimlərindən 6 nəfəri "Əməkdar müəllim", 3 nəfəri "Tərəqqi", 6 nəfəri "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuş, 2 nəfəri "Ən yaxşı müəllim" müsabiqəsinin qalibidir.

Rayon Təhsil Şöbəsi şagirdlərin ilboyu hərəkətinin izlənilməsini, şagird kontingentinin sabit saxlanılmasını diqqət mərkəzində saxlayır. I və II yarımilinin yekunlarına görə məktəblərdə şagird hərəkəti təhlil olunur, şagird kontingentinin sabitliyinin qorunması üçün məktəb rəhbərlərinə müvafiq tövsiyələr verilir. 2016-2017-ci dərs ilinin əvvəlində 10346 nəfər şagird olmuş, dərs ili ərzində rayonun ümumtəhsil məktəblərinə 141 nəfər şagird gəlmiş, 207 nəfər şagird məktəblərdən getmişdir. Gedən şagirdlərin təhsilə cəlb olunması RTŞ tərəfindən araşdırılmışdır. Araşdırma nəticəsində məlum olmuşdur ki, dərs ili ərzində gedən şagirdlərdən 92 nəfəri və ya 44 %-nin təhsilə cəlb olunması dəqiq məlum deyildir. Bu isə bir sıra məktəb rəhbərinin bu məsələyə səhlənkar yanaşmasının nəticəsidir.

Dərs ili ərzində təhsildən yayınma və şagirdlərin dərsə davamiyyəti ciddi diqqət mərkəzində saxlanmışdır. Təhsildən yayınma halları olmasa da bir sıra məktəblərdə ayrı ayrı siniflərdə şagirdlərin davamiyyətinin zəif olması müəyyən olunmuşdur.Şagird davamiyyətinin günün tələbləri səviyyəsində qurulması məqsədilə rayonun Abdulabad, Muğan , Tava , Tağılı, Atbulaq, Şorbaçı, Udulu , Meynəman kənd məktəblərində şagird davamiyyətinin qaydaya salınması məqsədilə rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə məktəb rəhbərləri və pedaqoji kollektiv tərəfindən ardıcıl iş aparılmışdır.

Respublikamızın hər yerində olduğu kimi 2016/2017-ci dərs ilində Hacıqabul rayonunun ümumtəhsil məktəblərinin I-IX siniflərində fənn kurikulumları tətbiq edilmişdir. Dərs ili ərzində rayon Təhsil Şöbəsi fənn kurikulumlarının tətbiqi istiqamətində məqsədyönlü işlər aparmışdır.

Rayonun ümumtəhsil məktəblərinin kurikulum tətbiq olunan siniflərində fənn kurikulumlarının tətbiqi və həmin siniflərdə təlim nəticələrinin mövcud vəziyyəti öyrənilərək müzakirə olunmuşdur. Monitorinq aparılan ümumtəhsil məktəblərinin rəhbərlərinə, kurikulum tətbiq olunan siniflərdə dərs deyən fənn müəllimlərinə müəyyən metodiki istiqamətlər və təkliflər verilmişdir.

**Davamə səh. 2-də**

# Yüksək təhsil uğurun açarıdır

(Əvvəli səh. 1-də)

Rayonumuzda ümumi orta və tam orta təhsil kursu üzrə buraxılış imtahanlarına hazırlıq işi mütəşəkkil təşkil olunmuş və iki imtahan mərkəzində keçirilən buraxılış imtahanları mövcud təlimatın tələblərinə uyğun keçirilmişdir. XI siniflər üzrə ilin sonunda 470 nəfər şagird tam tərkibdə imtahanlara buraxılmış, onlardan iki nəfəri fərqlənmə attestatı, 466 nəfəri adi attestat almış, iki nəfər isə imtahanlarda iştirak etmədiyi üçün attestat almamışdır.

2016/2017-ci dərs ilində rayonun ümumtəhsil məktəblərinin IX sinifləri üzrə 742 nəfər şagird tam tərkibdə imtahana buraxılmış, onlardan 740 nəfəri ümumi orta təhsil haqqında attestat almış, iki nəfər imtahanlarda iştirak etmədiyi üçün attestat almamışdır.

Ali və orta ixtisas məktəblərinə qəbulun nəticələri məktəbdə aparılan təlim-tərbiyə işlərinin aynasıdır. 2017-ci ildə XI sinfi bitirən şagirdlərdən rayon üzrə respublikanın dövlət və özəl ali təhsil müəssisələrinə 181 nəfər, orta ixtisas məktəblərinə 70 nəfər sənəd vermişdir. Rayonun tam orta məktəblərini bitirən məzunlardan müxtəlif alı məktəblərə rayon üzrə 108 nəfər (59,6%), orta ixtisas məktəblərinə 22 nəfər ( 31 % ) qəbul olmuşdur. Əvvəlki illərin məzunlarından isə 21 nəfər ali məktəblərə, 5 nəfər orta ixtisas məktəblərinə qəbul olunmuşdur. Bütövlükdə bu il rayon üzrə 129 nəfər ali məktəblərə, 27 nəfər orta ixtisas məktəblərinə qəbul olunmuşdur.

Yola saldığımız dərs ilində 2017-2018-ci tədris ili üçün tam orta təhsil səviyyəsinin təmayüllər üzrə davam etdirilməsini təşkil etmək məqsədilə Hacıqabul rayonu ümumtəhsil məktəblərinin IX sinfində təhsil alan şagirdlər, onların valideynləri, təhsil aldıqları məktəbdə fənn müəllimləri, məktəb rəhbərləri ilə bu istiqamətdə maarifləndirmə işləri aparılmış və müəyyən nəticələr əldə olunmuşdur. Yeni dərs ilində Şəhər 1,5,8,10 nömrəli və Rəncbər kənd tam orta məktəbində təhsilin təmayüllər üzrə təşkili olunması ilə bağlı tədbirlər həyata keçirilmişdir.

Dövlət Proqramına uyğun olaraq rayon Təhsil Şöbəsində istedadlı uşaq



və gənclər üçün fənn olimpiadalarına hazırlıq mərkəzi yaradılmış, mərkəzə ixtisas və peşəkarlıq səviyyəsilə seçilən müəllimlər cəlb olunmuşdur. 2017-cı ildə fənn olimpiadalarında 8 fənn - dil-ədəbiyyat, riyaziyyat, tarix, coğrafiya, biologiya, kimya, fizika, informatika üzrə IX, X, XI sinif şagirdlərindən 169 nəfər şagird iştirak etmişdir. 17 nəfər şagird zona mərhələsində iştirak etmiş, 1 nəfər şagirdimiz tarix fənni üzrə respublika turunda iştirak edərək III yerə layiq görülmüşdür.

Hacıqabul rayon təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər uğurla davam etdirilmişdir. Son illərdə rayonda 19 yeni məktəb binası tikilmiş, 8 məktəb binası əsaslı təmir olunmuşdur. Belə ki, 2001-2005-ci illərdə cəmi 2 yeni məktəb binası tikilmişdisə, 2006-2014-cü illərdə 17 yeni məktəb binası tikilmiş, 8 məktəbin binası əsaslı təmir olunmuşdur. Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi rayon İcra Hakimiyyətinin daimi diqqət mərkəzində olmuşdur. Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülmüş işləri, yeni tikilmiş və əsaslı təmir olunmuş məktəbləri nəzərə alsaq Hacıqabul rayonunda fəaliyyət göstərən 33 ümumtəhsil məktəbindən 27-nin, yeni 85%-nin şəraitinin son illərdə müasir tələblərə uyğun yenidən qurulduğu aydın olar. Yeni dərs ili ərəfəsində Təhsil Nazirliyi tərəfindən rayonun Muğan qəsəbə tam orta məktəbinin dam örtüyü dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur. Məktəb rəhbərləri və müəllimlərin təşkilatcılığı ilə şəhər 1, 3, 4, 6 nömrəli tam orta məktəblərdə daxili imkanlar hesabına sinif otaqları və koridorlarda cari təmir işləri aparılmışdır. Bütün bunlar ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycanın hər bir bölgəsində, o cümlədən Hacıqabul rayonunda təhsilin inkişafına göstərdiyi müstəsna xidmətinin və yüksək diqqətinin bariz nümunəsidir. Ona görə də rayonumuzun bütün təhsil işçiləri son illərdə 6 dəfə Hacıqabula səfər edən və hər səfərində Hacıqabulda aparılan abadlıq, quruculuq işlərini, doğma rayonumuzun inkişafını yüksək dəyərləndirən ölkə Prezidenti cənab İlham Əliyevə dərin məhəbbətlərini və sonsuz minnətdarlıqlarını bildirirlər.

2017/2018-ci dərs ilinin “Ümumi təhsildə keyfiyyət ili” elan edilməsi ilə əlaqədar hər bir məktəbdə tədbirlər planının hazırlanması və dərs ili ərzində təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı ardıcıl və təsirli tədbirlərin həyata keçirilməsi yeni dərs ilində qarşıda duran vəzifələrdən biridir.

Yeni dərs ilində qarşıda duran əsas vəzifələrdən biri də rayonun ümumtəhsil məktəblərində təlim keyfiyyətinin mövcud vəziyyətinin ardıcıl və sistemli şəkildə öyrənilib müvafiq təkliflərin müəyyənləşdirilməsidir. Bunun üçün rayon üzrə fəaliyyət planının təsdiq edilməsi və hər bir məktəbdə ayrı-ayrı fənlər, xüsusilə təbiət və riyaziyyat fənləri üzrə şagirdlərin təlim nəticələrinin hər yarımilin sonunda təhlil edilməsi vacibdir. Bu nəticələrin rayon üzrə ümumiləşdirilməsi və yekun olaraq zəruri tədbirlərin həyata keçirilməsi təlim keyfiyyətinin yüksəlməsinə xidmət edəcəkdir.



Ümumtəhsil məktəblərində fəal təlim metodlarının tətbiqi üzrə səmərəli iş sisteminin yaradılması, bu sahədə respublikada toplanmış təcrübənin öyrənilməsi, fəal təlim metodları ilə fəaliyyətin hər bir müəllim tərəfindən vəzifə və norma kimi qəbul edilməsinə nail olunması qarşıda duran ən vacib məsələlərdən biridir.

Məruzə ətrafında məktəb direktorları və müəllimlər çıxış edərək 2016-2017-ci tədris ilində məktəblərdə həyata keçirilən işlərdən və qarşıda duran vəzifələrdən danışdılar.

Konfransda rayon İcra Hakimiyyəti Başçısının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Elvin Şıxəliyev çıxış edərək yeni dərs ilinin başlanması münasibəti ilə rayonumuzun təhsil işçilərini təbrik etdi. Rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarovun səmimi təbriklərini onlara çatdırdı. Yeni dərs ilində təhsil işçilərinə uğurlar arzuladı. Müəllim əməyinə, müəllim peşəsinə daim ulu öndərimiz Heydər Əliyev tərəfindən yüksək qiymət verildiyini, bu gün isə bu siyasətin ulu öndərin davamçısı ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirildiyini, ölkədə təhsilin inkişafı üçün yorulmaq bilmədən çalışdığını təhsil işçilərinin nəzərinə çatdırdı.

Konfransda çıxış edən Azərbaycan Təhsil İnstitunun şöbə müdiri Piralı Əliyev ölkəmizdə həyata keçirilən təhsil sahəsindəki proqramlar, islahatlar, yeniliklər barədə ətraflı məlumat verdi.

Bu il ali məktəblərə imtahan verərək yüksək nəticələr göstərmiş, respublikamızın müxtəlif universitetlərinə qəbul olunmuş gənclər konfransda qiymətli hədiyyələrlə mükafatlandırıldı.

Sonda qarşıda duran vəzifələrlə bağlı müvafiq qərar qəbul edildi və ölkə Prezidenti cənab İlham Əliyevə konfrans iştirakçılarının müraciəti oxundu.

***“Hacıqabul”***

# Bilik günü qeyd olundu

***Bu tədris ilində rayonumuzun ümumtəhsil məktəblərində 10717 nəfər şagird təhsil alacaq. Bunlardan 1238 nəfəri 1-ci, 279 nəfəri 11-ci siniflərdə təhsil alacaq***



**15 sentyabr-Bilik Günü ənənəvi olaraq Hacıqabul rayonunun bütün orta təhsil müəssisələrində təntənə ilə qeyd olundu. Yeni dərs ili ərəfəsində məktəblərdə böyük hazırlıq işləri aparılmış, məktəblər öz sakinlərinin yolunu gözləyirdi.**

Yeni dərs ilində təhsil işçilərini, müəllim və şagirdləri yeniliklər gözləyir. Yeniliklər isə uğurların başlanğıcıdır. Həmin gün rayonumuzun bütün ümumtəhsil məktəblərində olduğu kimi şəhər 1 saylı tam orta məktəbdə də böyük qələbəlik, çal-çağır var idi. Bilik gününün sevincini yaşayan müəllimlər, valideynlər, şagirdlər səbirsizliklə ilk dərs ilinin başlanmasını gözləyirdi. Çünki 3 aylıq fasilədən sonra məktəb üçün darıxan müəllimlər də, şagirdlər də bir araya gəlmişdilər. Mərasimi açan məktəbin direktoru Cəmilə Ağamaliyeva gələn qonaqları, müəllimləri, valideynləri, şagirdləri yeni dərs ilinin



başlanması münasibəti ilə təbrik etdi, məktəb kollektivinə yeni dərs ilində uğurlar arzuladı.

Mərasimdə iştirak edən rayon İcra Hakimiyyəti Başçısının müavini Aslan Səmədov məktəb kollektivini ilk dərs ilinin başlanması münasibəti ilə təbrik etdi, onlara təhsildə uğurlar arzuladı.Son illər qazanılan bütün uğurların ölkə rəhbəri İlham Əliyevin təhsilin inkişafı ilə əlaqədar imzaladığı proqramlar çərçivəsində həyata keçirilən islahatlar sayəsində başa gəldiyini vurğuladı.

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov mərasimdə çıxış edərək Bilik günü münasibəti ilə məktəb kollektivini təbrik etdi. Yeni dərs ilində onlara uğurlar arzuladı. Son illər rayonda təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlərin uğurla aparılmasından, bütün bunların ölkə Prezidenti İlham Əliyevin Azərbaycanın hər bir bölgəsində, eləcə də rayonumuzda



təhsilin inkişafına göstərdiyi müstəsna xidmətinin və yüksək diqqətinin bariz nümunəsi olduğunu diqqətə çatdırdı.

Bilik günündə müəllimlər, valideynlər, şagirdlər bu günün sevincini yaşayaraq yeni dərs ilinin başlanması münasibəti ilə öz ürək sözlərini söylədilər, şerlər söylədilər, mahnı oxudular, rəqs etdilər.

Nəhayət ilk dərs gününün başlanmasını bildirən zəngin cingiltili sədaları eşidildi.Hamı dərs otaqlarında dərsə başladı.

Həmin gün rayonumuzun bütün ümumtəhsil məktəblərində Bilik gününün sevinci yaşandı. Xüsusilə, tələbə adını qazanmış məzunlarının sayı daha çox olan-şəhər 5 saylı, Navahı qəsəbə 1 saylı, Rəncbər kənd orta məktəbində, şəhərimizin 4, 8, 9, 10 saylı məktəblərində ikiqat sevinc yaşandı.

* * *

Şəhər 4 saylı məktəbdə də Bilik günü qeyd edildi. Adi “Bilik günü” kimi qeyd olunan bugün təhsilin yeni məzmun keyfiyyətinə görə biliklə yanaşı, bacarıq və qabiliyyətin formalaşmasına, bütövlükdə insan şəxsiyyətinin yetkinləşməsinə, vətəndaş şüurunun müəyyənləşməsinə zəmin olan prosesin başlanğıcıdır. Xatırladaq ki 2017-2018-ci dərs ili “Ümumi təhsildə keyfiyyət ili” elan edilib.

**(Davamə səh. 4-də)**

# Tələbə adınız mübarək!

*Bu il rayonumuz üzrə 129 nəfər ali məktəblərə, 27 nəfər isə orta ixtisas məktəblərinə qəbul olunmuşdur.*

*Ali məktəblər qəbul olunanlardan 21 nəfəri 500-dən, 3 nəfəri isə 600-dən yuxarı bal toplamışdır.*

*Tələbə adını qazanmış bütün gənclərimizi təbrik edir, onlara gələcək təhsillərində, tələbəlik illərində müvəffəqiyyətlər, uğurlar arzu edirik.*

*Onlardan bir neçəsini qəzetimizin oxucularına təqdim edirik.*



**Zeynalova Sədaqət Mübariz qızı, Navahı qəsəbə 1 saylı tam orta məktəbin məzunu**

Bu il məzunu olduğum Navahı qəsəbə 1 saylı tam orta məktəbi əla qiymətlərlə bitirdim. Arzum həkim olmaq idi. Məqsədimə çatmaqda mənə köməkçi olmuş müəllimlərimə, valideynlərimə dərin minnətdarlığımı bildirirəm.

Qəbul imtahanları mənim üçün uğurlu oldu. 610 bal toplayaraq Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olunmuşam. Əlbəttə tələbə olmaq, ali məktəbdə təhsil almaq hər gəncin arzusudur. Bu arzuya çatmaq üçünsə biliklərə yiyələnmək, kitablarla ünsiyyətdə olmaq gərəkdir. Təhsil aldığım orta məktəbdə müəllimlərimiz bizə kitablarla dostluğumuza ilk gündən körpü yaradıb. Bütün əldə etdiyim uğurlara görə valideynərimə və bizə elmin sirlərini öyrədən müəllimlərimə çox sağ olun deyirəm.

Çalışacağam ki, qəbul imtahanlarında olduğu kimi, tələbəlik illərində də fərqlənim, ali məktəbi müvəffəqiyyətlə bitirib yaxşı həkim olum.



**Babayeva Gövhər İbrahim qızı, şəhər 5 saylı tam orta məktəbin məzunu, 603 bal**

Artıq tələbə adını qazanmışam. Həyəcanlı günlər arxada qaldı. Həyəcanımız qələbə sevinci ilə əvəz olundu. Qəbul imtahanlarında 603 bal toplayaraq Bakı Dövlət Universitetinin dünya iqtisadiyyatı fakültəsinə qəbul olunmuşam. Bilirəm ki, seçdiyim ixtisas ehtiyac duyulan sahədir.Söz verirəm ki, yaxşı iqtisadçı olmaq üçün ali məktəbdə təhsilimi daha yüksək müvəffəqiyyətlə davam etdirəcək, müəllimlərimin, valideynlərimin etimadını doğruldacağam.



**Əzimova Səbinə Qurban qızı-Navahı qəsəbə 1 saylı tam orta məktəbin məzunu, 603 bal**

Həkim olmaq, insanların sağlamlığı keşiyində dayanmaq çoxdankı arzum idi. Belə xeyirxah sənətə bağlanmağımda mənə dayaq və kömək olan valideynlərimə, müəllimlərimə minnətdaram. Məqsədim budur ki, tələbəlik illərini uğurla başa vurub insanların sağlamlığı keşiyində dayanım. bundan böyük xoşbəxtlik görmürəm.

Həyatda uğr qazanmaq üçün yorulmadan çalışmaq lazımdır. İnsan uğur qazananda, arzusuna çatanda özünü təsdiq edir. Bu mənada istədiyim ali məktəbə qəbul olunmağımı həyatımın uğuru, ömrümün yeni mərhələsinə keçid hesab edirəm. Bu günlərə yol isə on bir illik məktəb illərindən başlanmışdır. Bu uğurlarımın təşkilatçısı müəllimlərim və valideynlərimdir. Çalışacağam ki, bundan sonra da həm valideynlərimin, həm də müəllimlərimin başını uca edim.

# Hamı bir nəfər kimi ağ pambıqlı tarlalara...





Rayonumuzun pambıq tarlalarında məhsul yığımı gündən-günə sürətlənir. Hər gün qəbul məntəqələrinə tonlarla "ağ qızıl" daşınır.

Strateji əhəmiyyətli bu məhsulun tez və itkisiz toplanmasına bütün kənd və eləcə də rayon sakinləri, əmək kollektivləri qoşulmuşdur.

Şəkildə gördüyünüz bu insanlar Pirsaat Qış Otlaqlarının Suvarılması İdarəsinin əməkdaşları-Qurban Qurbanov, Fuad Allahverdiyev, Əli Fətullayev və Mehman Bağırovdur.

Onlar hər gün adambaşına 35-50 kq. pambıq toplayırlar.

# Çəkilən zəhmət, axıdılan alın təri bol məhsula çevrilib üzə gülür

*Bu günlər bərəkətli torpaqlarda əkinçilər günəşi tarlada qarşılayıb, tarlada da yola salırlar. Məhsul bolluğundan doğan sevinc Hacıqabul kəndlisinin üz-gözündən asanlıqla oxunur.Bu da təsadüfü deyil. Bir neçə gündür ki, rayonumuzun ağ örpəyə bürünmüş pambıq tarlalarında pambıq yığımına başlanılmışdır.Dövlət səviyyəsində pambıqçılığa dəyişən münasibət taleyini torpağa bağlayan, halal zəhmətinə güvənən kəndliyə stimul verib. Rayon mərkəzindən bir xeyli aralı yerləşən Kürqırağı kəndlərdə də bu günlər yüksək əhval-ruhiyyə hökm sürür. Bu xoş ovqatın mayasında halal zəhmət durur.*



Rayonumuzun Meyniman kəndindən olan torpaq mülkiyyətçisi Zahid Məmişovun sahəsindən bu günə kimi 4000 kq, Natiq Dostəliyevin sahəsindən 2000 kq, Famil Cəfərovun sahəsindən 2000 kq, Ələtli kəndində Məmmədqulu Məmmədovun sahəsindən 1500 kq, İlqar Mirzəyevin sahəsindən 1500 kq-dan çox pambıq toplanıb. Səhər açılandan axşam alatoranına kimi pambıq toplayan insanların mütəşəkkilliyi "ağ qızıl"ın əvvəlki şöhrətinin qayıtmasından xəbər verir.



Bu günə kimi tarlalardan rayon üzrə 50 tondan artıq məhsul toplanmışdır.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrası, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyri-neft sektorunun davamlı inkişafı ilə bağlı qəbul etdiyi qərarlar və verdiyi tapşırıqlar ölkə iqtisadiyyatının mühüm sahəsi olan aqrar sektorda böyük canlanma yaradıb, onun tarixi şöhrətini özünə qaytarıb. Kənd təsərrüfatında yeni dirçəliş mərhələsi başlayıb.

Bu bir həqiqətdir ki, dövlət başçısının apardığı düşünülmüş siyasət nəticəsində insanlar torpağa bağlanıb, aqrar sahədə çalışanların həyat şəraiti dəyişib, maddi rifah halı xeyli yaxşılaşıb, ölkədə məhsul bolluğu yaranıb. Artıq kəndlərdə işsiz insanların sayı azalıb, onlar halal zəhmətləri ilə öz dolanışıqlarını təmin edirlər.

Meyniman kəndində pambıq istehsalçısı Natiq Dostəliyev 15 hektar sahədə pambıq əkmişdir. Göz oxşayan pambıq kollarına baxan N.Döstəliyev qeyd edir ki, mənim kimi pambıq əkib-becərən kənd adamlarının aylarla gözlədiyi



vaxt gəlib çatıb. Hər birimiz istəyirik ki, yetişdirdiyimiz "ağ qızıl"ı tez və itkisiz toplayıb təhvil verək. Mən özüm 2-ci ildir ki, pambıq əkirəm. Əvvəllər pambıqçılıqla məşğul olmamışam. Prezidentimiz İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahə olmuş pambıqçılığın əvvəlki şöhrətini qaytarmaq barədə çağırışına çoxları kimi mən də biganə qala bilmədim, bir kənd adamı kimi qollarımı çırmayıb həvəslə bu işə başladım. Ölkə Prezidentinin 22 sentyabr2016-cı il tarixli pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında sərəncama əsasən hər ton xam pambığa görə pambıq istehsalçılarına 100 manat subsidiya verilir. Göründə ki, dövlətimiz tərəfindən pambıq istehsalçılarına hərtərəfli qayğı göstərilir, pambığın əkilməsinə, becərilməsinə daha həvəslə, ürəklə yanaşınq. İndi Meyniman kəndində məhsul toplanışının qızğın çağıdır. Kənd əməkçilərimiz əlverişli hava şəraitinin hər dəqiqəsindən səmərəli istifadə edərək açılmış pambığı sürətlə, itkisiz toplayırlar.

Artıq rayonumuzun digər ərazilərində -Padar və Qarasu kəndində də pambıq yığımına başlanılmışdır. Ayrı-ayrı pambıq istehsalçıları, torpaq mülkiyyətçiləri yetişdirilmiş məhsulu mütəşəkkilliklə toplayır, pambıqçılığın inkişafına Dövlət dəstəyindən ruhlanaraq yığımın sürətini bir an da azaltmadan səylə çalışırlar.

Beləcə, rayonumuzun pambıq tarlalarında məhsul yığımı gündən-günə sürət götürür, qəbul məntəqələrinə "ağ qızıl" daşıyan qoşqulu traktorların sayı artır.

***Nazim Fətixanoğlu***

# HACIQABUL

№ 14 (673) 16 sentyabr 2017-ci il


# Kino mövsümü başladı

***Təqvimdə əlamətdar günlərin sırasına biri də əlavə olundu.Bu ildən etibarən sentyabr ayının 15-i ölkəmizdə həm də kino mövsümünün başlandığı gün kimi qeyd olunacaq. Belə***



***ki, mədəniyyət və turizm naziri Əbülfəz Qarayevin imzaladığı əmrə əsasən 2017-ci ildən etibarən hər il ölkəmizdə kino mövsümünə start veriləcək. Nəzərdə tutulan ekran əsərləri nümayiş olunacaq.***

Milli Kino günü münasibətilə şəhər Mədəniyyət evində “Qırmızı bağ” filmi nümayiş olundu. Filmi nümayiş edənlər arasında rayon ictimaiyyətinin, rayonun idarə və təşkilatlarının nümayəndələri, rayonun ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri iştirak ediblər.

"Qırmızı bağ" bədii filmi Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında və Rusiyanın "WeiT Media" kino şirkətində istehsal olunub.

Filmin nümayişindən öncə mərasimdə çıxış edən Sabirabad Regional Mədəniyyət və Turizm İdarəsinin Hacıqabul rayon üzrə nümayəndəsi Elnur Əmiraslanov Azərbaycan kinosunun inkişaf tarixi, kino tarixində əldə olunmuş nailiyyətlər haqqında məlumat verdi. Ssenari müəllifi və quruluşçu rejissoru Mirbala Səlimli olan film vaxtilə babaları bəy olmuş, özü isə müəllim işləyən bir insanın həyatını əks etdirir. İnsan və təbiət arasında münasibətlərdən, arzuların gerçəkləşdiyi məkandan bəhs edən "Qırmızı bağ" filmində baş rolları Gülzar Qurbanova, Maqsud Məmmədov, Tale Badıyev və digərləri canlandırıblar. Film 15-ci Dəkkə Beynəlxalq Film Festivalının “Mənəvi filmlər” müsabiqə proqramında “Ən yaxşı bədii film” mükafatına layiq görülüb.

Qeyd edək ki, “Qırmızı bağ” bədii filmi həmçinin Rusiyada 30-cu “Nika” mükafatının “MDB və Baltikyanı ölkələrin ən yaxşı filmi” mükafatına nominant elan olunub.

Film hacıqabullu izləyicilərin böyük marağına səbəb olub.

***Aytən Zülfəliyeva,***
***rayon Heydər Əliyev Mərkəzinin direktoru***

# Mən məktəbə hazıram



Rayon Heydər Əliyev Mərkəzində 15 Sentyabr- Bilik Günü ilə bağlı “Mən məktəbə hazıram” adlı tədbir keçirilmişdir. Tədbirdə 10 saylı və 1saylı tam orta məktəbin şagird kollektivi və valideyinləri iştirak edirdilər.

Mərkəzin direktoru Aytən Zülfəliyeva qonaqları salamlayaraq onları Mərkəzlə tanış etdi.

Mərkəzin əməkdaşı Təranə Məlikova isə şagirdlərə Mərkəzin fəaliyyətini əks etdirən eksponatlar haqqında məlumat verdi, onlara gələcək tədris ilində uğur arzuladı. Sonra şagirdlərin ifasında şeirlər səsləndirildi.Tədbirin sonunda xatirə şəkli çəkdirildi.

***Bahar Abasova,***
***rayon Heydər Əliyev Mərkəzinin baş fond mühafizi***

# Bilik günü qeyd olundu

***Bu tədris ilində rayonumuzun ümumtəhsil məktəblərində 10717 nəfər şagird təhsil alacaq. Bunlardan 1238 nəfəri 1-ci, 279 nəfəri 11-ci siniflərdə təhsil alacaq***

**(Əvvəli səh. 2-də)**

Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə Vətən uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi.

Tədbirdə çıxış edən məktəbin direktoru Hüseyn İbrahimov, müəllimlər, TİAHİ rayon komitəsinin sədri Kifayət Əmirbəyova, RİHBA-nın məsul işçisi Turanə İmanova, məktəbin Valideyn Komitəsinin sədri Nemət İbrahimov yeni dərs ilinin başlanması münasibəti ilə məktəb kollektivini təbrik etdi, bu il ilk dəfə olaraq birinci sinifə qədəm qoyan balaları, ali təhsil ocaqlarında və təmayülyönümlü məktəblərdə təhsillərini davam etdirən məktəbin yetirmələrini, yeni pedaqoji fəaliyyətə başlayan müəllimləri təbrik etdilər. Çıxış edən natiqlər ölkəmizdə aparılan təhsil siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən, məktəbin uğurlarından söz açdılar.

Tədbirin bədii hissəsində məktəbin şagirdlərinin ifasında söylədikləri, göstərdikləri rəqs nümunələri, səhnəciklər mərasim iştiraklarının marağına səbəb oldu. Şeir deyib mahnı oxumaqdan bir an belə yorulmayan şagirdlərimizin bu məhaarətindən sonra bu bir daha sübut olundu ki, Vətənin gələcəyi etibarlı əllərdədir.

Məktəbin on birinci və birinci sinif şagirdlərinin iştirakı ilə ilk zəng çalındı və bu zəng 4 saylı məktəbi 2017-2018-ci tədris ilində uğura aparan yolun ilk başlanğıcı oldu. Təhsil nazirinin əmrinə əsasən, respublikanın ümumi təhsil müəssisələrində olduğu kimi, 4 saylı məktəbdə də 2017-2018-ci tədris ilinin ilk dərs məşğələsi “Cocuq Mərcanlı-tarixi qayıdışın başlanğıcı” mövzusuna həsr olundu.

**Qeyd edək ki, rayonun ümumtəhsil məktəblərində keçirilən Bilik günü tədbirlərində rayon İcra Hakimiyyətinin, rayon Təhsil Şöbəsinin, rayon mətbuatının nümayəndələri iştirak edirdi.**

***Səadət Kərimovaa***

# Yeni qələbələrə doğru



2017-ci il avqustun 26-dan 28-dək Gürcüstan Respublikasının Batumi şəhərində idmanın kikboks növü üzrə klublararasdünya çempionatı keçirilmişdir. Bu mötəbər yarışlara İran, Türkiyə, Rusiya Qazaxstan, Belorusiya, Ukrayna, Azərbaycan, Gürcüstan, Ermənistan idmançıları dəvət olunmuşdular. Lakin müəyyən səbəblərə görə Rusiya, Ukrayna, Belorusiya və Qazaxstan idmançıları yarışlarda iştirak etməmişlər. Sevindirici haldır ki, Azərbaycan idmanını təmsil edən və doğma Hacıqabulmuzun idman şərəfini qoruyan rayon kikboks idman klubunun yetişdirmələri bu yarışlarda diqqətəlayiq uğurlara nail olmuşlar.

Baş təlimatçı-məşqçi Bədəl Bədəlovun rəhbərlik etdiyi klubun yetirmələri Hacıqabul rayo sakinləri 16 yaşlı Əlikram Hüseynov 53 kq çəki dərəcəsində, 11 yaşlı Famil İmanov 26 kq çəki dərəcəsində yarışlarda birinci yeri tutaraq qızıl medallara, fəxri diplomlara və Qara Kəmərlərə layiq görüldülər.Yetişdirmələrinin bu qələbəsinə görə baş təlimatçı-məşqçi Bədəl-Bədəlov Gürcüstan Kikboks Federasiyasının Prezidenti Soso Dalidze tərəfindən 7-ci DAN Qara Kəmər ustası adına layiq görülmüşdür.

Bu layiqli qələbələr münasibəti ilə məşqçi Bədəl-Bədəlovu və onun yetirmələrinitəbrik edir, gələcək məsul yarışlarda onlara yeni uğurlar və qələbələr arzu edirik.

***Nazim Fətixanoğlu***

# Uşaqların rəngli dünyası



Rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları "Fidanlar " uşaq baxçasında uşaqlarla görüş keçirmişdir. Mərkəzin əməkdaşları uşaq-



lara başa düşəcəyi tərzdə rənglər haqqında məlumat vermiş, onları rənglərlə tanış etmişlər. Sonra əməkdaşların özləri ilə gətirdiyi rəngli qələmlər və ağ kağız uşaqlara paylanılmış və Heydər Əliyev Mərkəzinin rəsm müəllimləsi Heyran Xancanova uşaqlara rəsm çəkməyin daha asan yollarını başa salmışdır. Uşaqlar rəsm çəkərək əylənmişlər.

***Bahar Abasova,***
***Rayon Heydər Əliyev Mərkəzinin baş fond mühafizi***

## Elan

Rayon Aqrar İslahat Komissiyasının 14 aprel 2003-cü il tarixli qərarı ilə Qarasu kənd sakini Zalıyev Ağamayıl Ağabala oğlunun adına verilmiş JN-411, kodu 91005018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

---

Navahı kənd sakini Zərbalıyev İsmayıl Ərzuman oğlunun adına qeydiyyat nömrəsi 1316001909 olan Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 07.04. 2016-cı il tarixdə Hüquqların Dövlət Qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət Reyestrindən Çıxarış itdiyi üçün etibarsız sayılır.


**HACIQABUL**

**Baş redaktor:** Xuraman Feyruzqızı

**Həmtəsisçi:** Qəzetin jurnalist kollektivi

Qəzet “Hacıqabul” qəzetinin kompyuter mərkəzində yığılmışdır, “Son Dakika” çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200